Yarışlar bir neçə idman növü üzrə keçirilib. Qızlar arasında keçirilən basketbol yarışlarında I yerə Yasamal, II yerə Xətai, III yerə Nərimanov rayon komandası çıxıb. Oğlanlar arasında təşkil olunan basketbol yarışlarında isə I yeri Nəsimi, II yeri Səbail, III yeri Xətai rayon komandası tutub. Voleybolçu qızlar arasında keçirilən oyunlarda da Xətai rayonunun komandaları I və II yerlərə layiq görülüblər. III yeri isə Şəki şəhər komandası əldə edib. Şəkinin voleybolçu oğlanları daha uğurlu nəticə göstərərək, I yeri tutublar. Oğlanların voleybol qarşılaşmasında II yerə Salyan, III yerə Balakən rayon komandası çıxıb.

Dama yarışlarında Suraxanı məktəbliləri fərqlənib. Sonrakı yerləri 13 saylı Bakı Peşə Liseyi və Nizami rayon komandaları tutub.

Stolüstü tennis üzrə keçirilən yarışlarda I yerə Xətai, II yerə Quba rayon, III yerə 13 saylı Baki Peşə Liseyinin komandası çıxıb.

Qeyd edək ki, Təhsil Nazirliyi idman yarışlarında məktəblilərin fəallığını yüksək qiymətləndirir və bu tədbirlərin reallaşmasında əməyi olan hər kəsə təşəkkürünü bildirir.